

■ Ruslan Dost Əli

Ömrüm də, vaxtım da badə kimidir,
şərabla doldurram bütün boşluğu.
Bircə nəfər qalıb əl verəcəyim, -
Tanrıya borcluyam bu sərxoşluğu.

Bu evin çölündə nə varsa, qaçıb,
bu evin içində nə var, gedəcək:
Bir gün qanad çalıb şəklin uçacaq,
bir gün ayaq açıb divar gedəcək...

Bilmirəm, bilmirəm neçədi saat,
iki şüşə qalıb nahar vaxtına.
Nə gül var, nə də bir gül verəcəyim,
məni saxlamayın bahar vaxtına.

* * *

Zarıyır, çöllərin canına düşür,
tutub bağlamırıq it canımızı...
Bu zaman olmasa əcəl-zad nədi,
heç it də bəyənməz şit canımızı.

Birtəhər qaldırıb təbə gətirdik,
Elə bil bir ölü dəvə gətirdik:
Qolundan yapışıb evə gətirdik,
Götürüb apardı dərd canımızı...

Saat ömrümüzün vaxt maşınıdı,
Atların yüyrəyi, qaraşınıdı.
Ölüm bizdən ötrü ətmaşınıdı,
Hər gün bir az çəkir ət canımızı...

* * *

Vecimə də deyil bəstəboyluğun,
Getdikcə ən uzun fəslim olursan.
Məni mən eləyən köküm səndədi,
Sən mənim ən gözəl əslim olursan.

Gedişin ağlımı tamam çaşdırır,
Yüngül ağrıları ağırlaşdırır,
Səni gözlərimdə tanrılaşdırır,
Qayıdıb gələndə mislim olursan...

Bu da bir addımdır, gündür, deyirsən,
Hər günü addımtək atıb gedirsən.
Əlini qaldırıb dua edirsən,
Görən elə bilir təslim olursan...

* * *

Az ölün, yara yerinə
ağzımdan ağı çıxacaq...
Bağrımın başı geyişir,
minillik ağrı çıxacaq.

Ac-yalavac ölümlərə
adamlar soyulmuş kimidir.
Dədə, qaşnan göz arası
əcələ su yolu kimidir.

Bu gözünnən bulanmışa
baxıb, başını bulama.
Dərdim palçıq şəklindədir,
üst-başını bulama...

* * *

hələ var vaxta sən də,
otur, onda gedərsən...
bu son görüş - deyirsən,
son vaqonda gedərsən...

gələn-gedən olmasın,
qapıları bağlayaq.
öldürək özümüzü,
özümüz də ağlayaq...

bir sən varsan, bir də mən,
özgələrdən danışma.
içim sınıq-sınıqdı,
güzgülərdən danışma...

bir tələsmə səncanın,
bir qoy görək, gedərsən:
təkcəcə ölmək olmur,
birgə ölək, gedərsən...

* * *

Gündüzü çətindi, gecəsi zordu,
burda keçirdiyim vaxtı sevmirəm.
Canıma zərərli olmayan şeyi
sevməyə həvəsim yoxdu... sevmirəm.
Ard-arda calayıb siqaretləri,
çəkdim, tüstüsündə kimsə göründü...
Bilməm, nə tapmışam mən bu zəhərdə?..
Mənim bu şəhərlə aram sərindi -
Sən yoxsan bu şəhərdə...

Hələ də baxıram, məktublarında,
sevdiyim o muncuq xəttin qalıbdı.
Mənə canım qədər əzizsən yenə,
yanımda nə boyda xətrin qalıbdı.
Yoxsa, məktubdanmı gəlir bu ətir,
elə bil nə vaxtsa burdan keçmisən,
Sənin bu şəhərdə ətrin qalıbdı...
Sən yoxsan bu şəhərdə...

Çoxları bəlkə də məni qınayır,
gözümnən itirdim "əl çatan"ları...
Məni oralarda yaxşı tanıyır,
sən olan şəhərin gül satanları

Burda da adımı əzbər bilirlər,
aptekdə işləyən satıcı qızlar...
Elə də sən deyən parlaq deyillər,
Elə bil can dərdi çıxır ulduzlar, -
Sən yoxsan bu şəhərdə...

Yoxsa, bu şəhərə kimsə qarğayıb? -
gül kimi gözəllər qarıyıb gedir...
Yazın ortasında yas yas dalıyca, -
ağaclar bir ucdan quruyub gedir...

Bəlkə də ağlında, fikrində deyil,
heç nə bu şəhərdə yerində deyil,
Bilirsən, başımda bir az çatışmır,
onsuz bu şəhərin dəlisi çoxdu,
Əli bu şəhərə artıqlıq edir...
Bir də bu şəhərdə bir qız çatışmır, -
Sən yoxsan bu şəhərdə...

***Xanım İsmayılqızı üçün***

Çox yaxın çoxunun deyil,
Uzaqlar yaxının deyil.
Bu ana yaxının deyil,
Uzaqların anasıdır...

Gözlərinə qəm düşəndən,
Sözlərinə nəm düşəndən,
Ömrünə axşam düşəndən
Çıraqların anasıdır...

Necə sındı gül budağı,
Qaldır görüm, gəl, bu dağı.
Quruyandan qol-budağı
Yarpaqların anasıdır...

Bir səs gəlir, duyur, yazır,
Öz canına doyur, yazır...
Balasına şeir yazır,
Varaqları anasıdır...

Torpağa ana deyənlər
Sussunlar, yalan deyərlər!
Oğlun torpağa verənlər,
Torpaqların anasıdır...

* * *

Gözüm bir məzarın sehrinə dalıb,
Görürəm başdaşı ölüyə yükdü...
Bu adam daşından balaca qalıb,
Bu daş yiyəsindən yaşca böyükdü.

Hərənin bir daşa qarışıb başı,
Mən elə bilirəm burda hamı var!
Hər kəsin özünün öz doğma daşı,
Hər daşın özünün öz adamı var...

Daşlar bir-birinin ardına düşməz,
Elə nə vaxt baxsan duruxan olar...
Hardasa bir adam heç yada düşməz,
Hansısa daş üçün darıxan olar...

Kişilər kişiynən, qadın qadınnan,
Yollara boylanar adam başları...
Gör necə dönərmiş adam adamdan,
Gör necə sevərmiş adam daşları...

Nə bilim, bəlkə də desəm, yeridi,
Vaxt keçir, qazanır daşla şan adam.
Bir ömür boyunca sənə yer edir,
Bir göz qırpımında daşlaşan adam...

İlahi hərəyə bir daş bağışlar,
Yazıb taleləri daşa, göndərib.
Bu soyuq baxışlar, bu daş baxışlar
Mənim ürəyimi daşa döndərib...

Yenə öz sirrində qal da, razıyam,
Üzünü göstərmə, bir səs ver, Allah!
Mənim nəfəsimi al da, razıyam,
Sən bu baş daşına nəfəs ver, Allah!

* * *

Bilirəm ürəklər necə əkilir,
necə bitiş tutur toxumlar belə...
Uzağı, ögeyi, yadı boş ver, ey,
məni incitdilər qohumlar belə...

Durma başım üstə, bihalam, yeri,
Bir az Allahlığam, biraz sənniyəm!
Çoxları qoymadı bir salam yeri,
siz elə bildiniz dəvə kinliyəm...

Gedimmi, dönümmü evə? - bilmədim,
inciyəm bir quru canımnan belə...
Neylədim, dünyanı sevə bilmədim,
qırıldım atamnan, anamnan belə!

Qızlardan bir gözü badam qalmışdı,
onnan da salamı kəsirəm daha!
Dünəndən bir neçə adam qalmışdı,
bu günnən hamıdan küsürəm daha...

